BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# Müasir münaqişələr və Azərbaycan nümunəsi


Mətin Məmmədli

Sultan Zahidov

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az


APREL 2026

## Müasir münaqişələr və Azərbaycan nümunəsi

- **Müasir beynəlxlaq münasibətlər sistemində münaqişələr qlobal təhlükəsizliyin əsas struktur amillərindən birinə çevrilmiş, onların coğrafiyası genişlənmiş, intensivliyi isə artmışdır.**
- **Müasir münaqişələr uzunmüddətli, hibrid xarakterli və çoxölçülü olmaqla yanaşı, qlobal iqtisadiyyata və siyasi sistemlərə ciddi təsir göstərir.**
- **Beynəlxalq münasibətlər nəzəriyyələri içərisində realizm münaqişələrin izahında daha praktik və rasional yanaşma kimi ön plana çıxır.**
- **Rusiya – Ukrayna müharibəsi və Yaxın Şərqdəki münaqişələr müasir müharibələrin uzanan, yüksək intensivlikli və qeyri – müəyyən nəticəli xarakterini açıq şəkildə nümayiş etdirir.**
- **Keçmiş Ermənistan – Azərbaycan münaqişəsinin həlli göstərdi ki, hərbi, siyasi və iqtisadi alətlərin kompleks tətbiqi nəticəsində münaqişənin həllinə nail olmaq mümkündür.**
- **"Azərbaycan modeli" milli maraqlara əsaslanan çoxşaxəli strategiyanın (hərbi güc, iqtisadi resurslar və praqmatik xarici siyasət) vəhdəti kimi münaqişələrin həllində alternativ yanaşma təqdim edir.**

Müasir beynəlxalq münasibətlər sistemində münaqişələr və müharibələr artıq lokal hadisə olmaqdan çıxaraq qlobal təhlükəsizlik arxitekturasını müəyyən edən əsas struktur amilə çevrilmişdir. Xüsusilə XXI əsrin ikinci onilliyindən etibarən beynəlxalq sistemdə müşahidə olunan geosiyasi ziddiyyətlərin kəskinləşməsi, böyük güclər arasında rəqabətin dərinləşməsi və beynəlxalq hüquq normalarının selektiv tətbiqinin artması silahlı qarşıdurmaların intensivliyini və coğrafiyasını genişləndirmişdir. Bu kontekstdə həm uzunmüddətli və qeyri-müəyyən nəticələr doğuran münaqişələr, həm də qısa müddətdə strateji nəticə əldə edən nümunələr xüsusi elmi maraq doğurur. Məhz bu baxımdan, bəzi qlobal və regional nəticələri olan münaqişələrin ümumi xüsusiyyətlərini təhlil etməklə yanaşı, Azərbaycan təcrübəsinin ayrıca araşdırılması müasir müharibə modellərinin müqayisəli şəkildə qiymətləndirilməsi üçün mühüm analitik çərçivə təqdim edir.

Qeyd etdiyimiz kimi son illərdə müxtəlif xarakterli münaqişələrin coğrafiyasının genişlənməsi və kəskinləşməsi qlobal təhlükəsizlik sistemini sarsıtmaqdadır. Bəzi nüfuzlu beynəlxalq araşdırma mərkəzlərinin hesabatları, təhlilləri də münaqişələrin hansı təhlükəli həddə qədər dərinləşdiyini təsdiq edir. Məsələn, Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutuna (SIPRI) görə 2024-cü ildə silahlı münaqişəyə cəlb olunan dövlətlərin sayı 2023-cü illə müqayisədə bir qədər azalsa da (51-dən 49-a), münaqişə ilə bağlı ümumi ölüm göstəricisinin artması (2018-2024-cü illər ardıcıllığında ən yüksək illik toplam kimi təqdim olunur) intensivliyin yüksəldiyini göstərir[1]. Beynəlxalq Böhran Qrupunun (International Crisis Group) 2026 - cı il

[1] https://www.sipri.org/sites/default/files/2025-06/yb25_summary_en.pdf?utm

proqnozları isə (2025- ci ilin “qanlı il” kimi xarakterizə edilməsi və 2026-cı il üçün “az yaxşı” perspektivlər) “uzanan müharibə” fenomeninin institusional səbəblərini ön plana çıxarır: tərəflərarası etimadsızlıq, xarici aktorların təsiri, danışıqlar arxitekturasının parçalanması və böhranlarda “sanksiya-eskalasiya” dövriliyinin dərinləşməsi[2]. Beləliklə, hazırkı mərhələdə münaqişələr qlobal sabitliyə “başlıca problem” kimi təsir etməklə yanaşı, beynəlxalq sistemin klassik institutlarının (vasitəçilik, sülhməramlılıq, iqtisadi tənzimləmə) operativlik və icra mexanizmləri baxımından da sınağını kəskinləşdirir.

Fikrimizcə, burada problemə həm də qısa olaraq nəzəri yanaşsaq yerinə düşər. Beynəlxalq münasibətlər nəzəriyyələrində münaqişələrin izahı əsasən üç fundamental yanaşma üzərində qurulur: realizm (neorealizm), liberalizm və konstruktivizm. Realist yanaşmaya görə, dövlətlər anarxik beynəlxalq sistemdə öz təhlükəsizliklərini təmin etmək üçün güc toplayır və bu proses qaçılmaz şəkildə münaqişələrə gətirib çıxarır. Liberal yanaşma isə institutların, iqtisadi qarşılıqlı asılılığın və demokratik dəyərlərin müharibələrin qarşısını ala biləcəyini iddia edir. Konstruktivist yanaşma isə identiklik, tarixi yaddaş və ideoloji faktorların münaqişələrin formalaşmasında mühüm rol oynadığını vurğulayır. Münaqişələrə yanaşmada hər üç nəzəriyyənin də müəyyən əsasları olsa da etiraf etmək lazımdır ki, realistlərin və yaxud neorealistlərin problemə baxışı daha məntiqli, rasional hesab edilə bilər. Realistlərin təbirincə desək xaotik, anarxik təbiəti olan hazırkı dünya nizamında münaqişələrin artması, kəskinləşməsi və daha böyük münaqişələrə çevrilməsi gözləniləndir.

Hazırda davam edən münaqişələrə baxdıqda miqyasına və kəskinliyinə görə diqqəti daha çox cəlb edən münaqişələrdən biri Rusiya-Ukrayna müharibəsidir desək, yanılmarıq. Belə demək mümkündürsə bu müharibə müasir dövrdə konvensional və qeyri-konvensional müharibə elementlərinin sintezini nümayiş etdirən tipik nümunədir. Münaqişənin uzanması “tükəndirmə strategiyası”nın aktuallığını bir daha gündəmə gətirmişdir. Rusiya-Ukrayna müharibəsi artıq “qısa müharibə” paradiqmasını aşaraq uzunmüddətli, yüksək intensivlikli qarşıdurma modelinə çevrilmişdir. 2026-cı ilin fevralında dərc olunmuş qiymətləndirmədə müharibə “tammiqyaslı işğalın dörd ili” kontekstində təqdim edilir və bu ifadə münaqişənin strukturlaşmış şəkildə uzandığını təsdiqləyən institusional indikator kimi çıxış edir[3]. 2025-ci ilin mülki itkilər üzrə “ən ölümcül il” kimi təqdim olunması (2024 və 2023-lə müqayisəli artımla) müharibənin müddəti artdıqca mülki təhlükəsizliyin avtomatik yaxşılaşmadığını göstərir; əksinə, zərbə texnologiyalarının və şəhər infrastrukturu hədəflərinin genişlənməsi nəticəsində risklər yüksələ bilər[4].

---

[2] https://www.crisisgroup.org/cmt/global/10-conflicts-watch-2026?utm

[3] https://www.worldbank.org/en/news/press-release/2026/02/23/updated-ukraine-recovery-and-reconstruction-needs-assessment-released

[4] https://ukraine.ohchr.org/en/2025-deadliest-year-for-civilians-in-Ukraine-since-2022-UN-human-rights-monitors-

Geoiqtisadi baxımdan, müharibənin "infrastrukturun məhvi" ölçüsü bərpa ehtiyaclarında kəskin ifadə olunur. Bəzi hesablamalara görə, 2025-ci ilin sonunadək birbaşa zərər 195 mlrd ABŞ dollarını ötür, növbəti onillik üzrə bərpa və yenidənqurma xərcləri isə təxminən 588 mlrd dollar səviyyəsində qeyd edilir[5]. Bu rəqəmlər uzunmüddətli müharibənin klassik paradoksunu üzə çıxarır: tərəflər "həlledici nəticə" əldə etmədikcə, hər yeni dövr bərpa imkanlarını da daha bahalı və daha mürəkkəb edir; bu isə "sülh ümidi"nin təkcə siyasi deyil, həm də iqtisadi resurslar baxımından çətinləşməsinə gətirir.

Yaxın Şərqdə baş verən proseslər isə çoxölçülü qarşıdurma modelini ortaya qoyur. Bu münaqişələrdə dövlətlərarası qarşıdurma ilə yanaşı, dini-ideoloji və geosiyasi faktorlar da həlledici rol oynayır. 2026-cı ilin fevral-aprel aylarında Yaxın Şərqdə baş verən ABŞ-İran qarşıdurması, "qısa müddətli zərbə kampaniyası" gözləntilərinin çox tez olduğunu göstərdi. Tərəflər arasında atəşkəs elan edilsə də bir çox səbəblərdən bu atəşkəsin kövrək olduğu danılmaz gerçəklikdir. Onu da qeyd edək ki, hələ bitməyən bu münaqişənin cari nəticələri regionun hüdudlarını aşaraq qlobal iqtisadiyyata, dünya ticarətinə, enerji bazarına əhəmiyyətli dərəcədə təsir göstərib.

Bütövlükdə, hazırda dünyada davam edən münaqişələrin xarakterini izah etmək üçün digər müharibələri də qeyd etmək olar. Ancaq, fikrimizcə, əvvəldə qeyd edilən iki müharibə cari münaqişələrin əsas xüsusiyyətlərini aydınlaşdırmağa kifayət edir. Ümumiyyətlə, müasir münaqişələrin əsas xüsusiyyətlərini belə sıralamaq olar:

- Uzunmüddətlilik və qeyri-müəyyənlik;
- Hibrid xarakter;
- Qlobal təsir;
- Qeyri-dövlət aktorlarının rolu;
- Nadir hallarda mütləq qələbənin olması.

## Münaqişələrin həllində "Azərbaycan modeli"

Beynəlxalq münasibətlər sistemində tarix boyu münaqişələr və müharibələrin geniş vüsət aldığı "geosiyasi parçalanma kəmərlərindən" biri də Cənubi Qafqaz regionudur. Coğrafi olaraq şərq-qərb və şimal-cənub nöqtələrinin kəsişmə zonasında yerləşən, iqtisadi resurslarla zəngin olan Cənubi Qafqazda intraregional və ekstraregional faktorlar (böyük və regional güclərin geosiyasi çəkişməsi) bölgənin "barıt çəlləyi'nə çevrilməsini şərtləndirən amillər sırasındadır. Post-soyuq müharibə dönəmində bölgənin Sovet əsarətindən qurtulması Cənubi Qafqaz uğrunda geosiyasi qarşıdurmaların şiddətlənməsinə və bir müddət yatmış vəziyyətdə olan münaqişə ocaqlarının yenidən alovlanmasına gətirib çıxartdı. Geostrateji və geoiqtisadi cəhətdən böyük potensial vəd edən Cənubi Qafqazda baş

find?utm

[5] https://www.worldbank.org/en/news/press-release/2026/02/23/updated-ukraine-recovery-and-reconstruction-needs-assessment-released

verən münaqişələr regionun təhlükəsizlik arxitekturasına, sabitliyə və sülhə ciddi təhdidlər törətməklə yanaşı, regional iqtisadi inkişaf yolunda da maneələr yaratmaqda idi.

Bəzi mütəxəsislərə görə Cənubi Qafqazın "pandora qutusu", yəni ki, regional sülh və inkişafa əsas maneə, nəqliyyat və kommunikasiya xəttlərinin tam şəkildə açılmasını mümkünsüz edən "Qordi düyünü" məhz keçmiş Ermənistan-Azərbaycan münaqişəsi olmuşdur. Tarixi keçmiş dövrlərə çıxan bu münaqişə ötən əsrin 90-cu illərində Ermənistanın Azərbaycana qarşı başlatdığı təcavüzkar müharibə ilə eskalasiya nöqtəsinə çatmışdır. Qeyd olunmalıdır ki, bu təcavüzkar siyasətin əsasında erməni irredentizminə söykənən separatizmin dəstəklənməsi dayanırdı. Müharibə nəticəsində Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20%-i işğal edilmiş, mülki əhaliyə qarşı qətliamlar törədilmiş və 80-ci illərdə Ermənistandan məcburi şəkildə köçürülmüş azərbaycanlıları da nəzərə alsaq, bir milyona yaxın qaçqın və məcburi köçkün yaranmışdır.

Qeyd olunmalıdır ki, həmin vaxtdan etibarən Azərbaycan və Ermənistan arasında paralel şəkildə danışıqlar prosesinə start verilsə də, Ermənistanın işğal ritorikasından imtina etmək istəməməsi və destruktiv mövqeyi səbəbindən danışıqlar ciddi nəticə verməmişdir. Münaqişənin həlli ilə bağlı 1992-ci ildə yaradılan ATƏT-in Minsk Qrupu da nizamlanma prosesinə töhfə verməyərək 2025-ci ildə rəsmən fəaliyyətinə xitam vermişdir. Bundan başqa, Birinci Qarabağ Müharibəsi zamanı BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin işğaldan azad edilməsini tələb edən 4 qətnamə (822, 853, 874, 884) qəbul etsə də, Ermənistan bu qətnamələrin heç birinə məhəl qoymamış və işğal siyasətini davam etdirmişdir.

Azərbaycan isə 2020-ci ilə qədər danışıqlar yolu ilə münaqişənin həll edilməsi üçün bütün siyasi-diplomatik imkanlarını səfərbər etmiş, müxtəlif beynəlxalq platformalarda "erməni işğalı" məsələsini gündəmə gətirmiş və digər dövlətlərin, beynəlxalq institutların bu məsələdə daha aktiv rol oynamasına, Ermənistanı işğal siyasətindən döndərmək üçün bu ölkə üzərində təsir və təzyiq imkanlarından istifadə etməyə çağırmışdır. Azərbaycan münaqişənin həllində beynəlxalq hüququn fundamental prinsip və normalarını, o cümlədən dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət, sərhədlərin toxunulmazlığı kimi prinsipləri əsas götürmüş, eyni zamanda tarixi ədaləti bərpa etmək niyyətində olmuşdur. Bununla belə, Azərbaycanın "münaqişənin danışıqlar yolu ilə həlli" mövqeyi nəticə hasil etməmiş, qarşı tərəf, əksinə, vasitəçilərin mövcud status-kvonu saxlamaq niyyətindən ruhlanaraq danışıqlar masasında dekonstruktiv mövqe sərgiləməyə və Azərbaycana qarşı təmas xətti və şərti sərhəddə təxribatlara davam etmişdir.

Keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasını təhlil edərkən Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar və sülh üçün real imkanlar yaradan İkinci Qarabağ Müharibəsini zəruri edən amilləri nəzərdən keçirməkdə fayda vardır. Bu amillər ilk növbədə Ermənistanın beynəlxalq hüququ heçə sayması,

danışıqları fərqli səbəblərlə uzatmağa çalışması, eyni zamanda Azərbaycana qarşı təcavüzkar siyasətini davam etdirməsi ilə bağlıdır. Ermənistan siyasi rəhbərliyinin danışıqlarda razılaşdırılmış ənənəvi formatdan imtina etməsi, Qarabağda qondarma seçkilər təşkil etməsi, Ermənistanın müdafiə nazirinin "yeni ərazilər üçün yeni müharibələr" hərbi doktrinasını elan etməsi və paralel şəkildə Ermənistan hərbi qüvvələrinin Azərbaycana qarşı 2020-ci ilin iyul-avqust-sentyabr aylarında təxribatlar həyata keçirməsi İkinci Qarabağ Müharibəsini zəruri edən faktorlar kimi nəzərdən keçirilməlidir.

2020-ci ilin sentyabrında BMT Baş Assambleyasının plenar iclasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan rəhbərliyinin düşməncəsinə verilən Azərbaycanofob bəyanatları və edilən təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşdığını nümayiş etdirdiyini bildirmişdir.[6] Bununla belə, Ermənistanın ardıcıl təxribatları və yeni müharibə planlarına son qoyulması üçün dünya birliyi tərəfindən heç bir praktiki addım atılmadı. Bundan daha da ürəklənən Ermənistan 2020-ci il sentyabrın 27-də bir neçə istiqamətdən Azərbaycan Ordusunun mövqelərinə doğru hücuma keçdi, ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrinə atəş zərbələri endirdi.[7]

Ermənistanın növbəti hərbi təcavüz cəhdinə cavab olaraq Azərbaycan ordusu əks-hücum əməliyyatı həyata keçirmiş və beləcə İkinci Qarabağ Müharibəsi başlamışdır. 44 gün davam edən müharibənin gedişində Azərbaycan qarşısına qoyduğu bütün məqsədlərə nail olmuş, Ermənistan ordusunu məğlub edərək 300-dən çox yaşayış məntəqəsini işğaldan azad etmişdir. Müharibə nəticəsində 2020-ci ilin noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş naziri və Rusiya Federasiyasının Prezidentinin birgə imzaladığı üçtərəfli bəyanatla Ermənistan Azərbaycanın digər rayonlarını – Ağdam, Laçın və Kəlbəcəri işğaldan azad etmək öhdəliyini götürmüşdür. Beləliklə, Azərbaycan İkinci Qarabağ Müharibəsində qarşısına qoyduğu məqsədlərə həm hərbi yolla – Ermənistanı döyüş meydanında məğlub edərək, həm də siyasi yolla – Ermənistanı danışıqlar masasında Azərbaycan ərazilərindən çıxmağa vadar edərək nail olmuşdur.

Qeyd olunmalıdır ki, Azərbaycan İkinci Qarabağ Müharibəsindən sonra Ermənistanla sülh danışıqlarına təşəbbüs göstərmiş və qarşı tərəfə sülhün 5 prinsipi ilə bağlı təklif vermişdir. Danışıqlar nəticəsində 2022-ci ildə Praqada tərəflər bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla bağlı bəyanat versələr də, Azərbaycanın Qarabağ İqtisadi rayonunda qondarma rejimin – boz zonanın mövcud olması Azərbaycanın öz əraziləri üzərində suverenliyini tam bərqərar etməyə baryer olaraq qalmaqda idi. Digər tərəfdən Ermənistanın Üçtərəfli Bəyanatın maddələrinə riayət etməməsi, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin Qarabağ iqtisadi rayonunda genişmiqyaslı təxribatlar törətməsi Azərbaycanı bu istiqamətdə praktiki addımlar atmağa vadar etdi. Bu faktorları nəzərə alaraq Azərbaycan 2023-cü il

[6] https://president.az/az/articles/view/40937
[7] https://president.az/az/pages/view/azerbaijan/karabakh

sentyabrın 19-da işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhalinin təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə antiterror tədbirlərinə başladı. Bir gündən az davam edən antiterror tədbirləri nəticəsində bölgədə qalan qeyri-qanuni Ermənistan silahlı qüvvələri tam tərksilah edilərək Azərbaycan ərazisindən çıxarıldı, qondarma rejimin qalıqları isə onun ləğv olunduğunu elan etdi. Azərbaycan öz ərazisində separatçılığa, "boz zona"ya son qoyaraq dövlət suverenliyini tam bərpa etdi.

Beləliklə, İkinci Qarabağ Müharibəsi və 2023-cü ilin anti-terror əməliyyatları nəticəsində Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, beynəlxalq hüququn prinsiplərinin, o cümlədən BMT TŞ-nın dörd qətnaməsinin implementasiyasını təmin etmişdir. Qeyd etmək vacibdir ki, Azərbaycanın qələbəsi yalnız beynəlxalq hüququn təmini baxımından deyil, həm də iki dövlət arasında sülhün prerekvizitlərinin formalaşdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Nəticə etibarı ilə işğal faktoru və 200 illik tarixə malik erməni separatizmi ləğv edilmiş və beləcə, sülh yolundan başlıca əngəl aradan qalxmışdır.

Azərbaycanın İkinci Qarabağ Müharibəsi və antiterror əməliyyatlarında qazandığı zəfər Ermənistan-Azərbaycan münaqişəsinin bitməsində həlledici əhəmiyyətə malikdir. Məhz qazanılan mütləq qələbə ilə Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş, sülh üçün real imkanlar yaratmış və münaqişənin həllində "Azərbaycan modeli"nin ərsəyə gəlməsinə rəvac vermişdir. Azərbaycanı münaqişələrin həllində bir model kimi nəzərdən keçirərkən bu ölkənin zəfərə apardığı yolu nəzərdən keçirməkdə fayda vardır. Bu yol Azərbaycanın strateji hesablanmış və milli maraqlara xidmət edən praqmatik xarici, iqtisadi və hərbi siyasətinin vəhdəti şəklində nəzərdən keçirilməlidir. Əsası ötən əsrin 90-cı illərində Prezident Heydər Əliyev tərəfindən qoyulmuş və daha sonra Prezident İlham Əliyevin davam etdirdiyi bu siyasi dəst-xəttin başlıca məqsədi erməni işğalını aradan qaldırmaqla Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etmək idi.

Azərbaycanın bəhs olunan istiqamətdə başlıca strategiyası malik olduğu təbii sərvətləri - iqtisadi resurslara, iqtisadi resursları isə hərbi gücə çevirməkdi. Bu baxımdan 1994-cü ildə dünyanın 8 ölkəsinin 13 aparıcı neft şirkəti ilə imzalanan "Əsrin müqaviləsi" xüsusi əhəmiyyət kəsb edir. [8] Həmin dönəmdən etibarən Azərbaycanın enerji sektoruna xaricdən böyük miqdarda investisiyalar daxil olmuş və beləcə ölkənin iqtisadi inkişafının təməl sütunlarından biri təsis edilmişdir. Digər tərəfdən Azərbaycanın həm Prezident Heydər Əliyev, həm də İlham Əliyev dönəmində həyata keçirdiyi iqtisadi islahatlar, o cümlədən "enerji diversifikasiyası" strategiyası Azərbaycanı boru kəmərləri vasitəsilə neft və qaz resursları nəqlində regionun aparıcı dövlətinə çevirmiş, ölkənin iqtisadi potensialını daha da genişləndirmişdir.

---

[8] https://minenergy.gov.az/en/neft/esrin-muqavilesi

Azərbaycanın iqtisadi siyasətində ümdə məqsədlər sırasında ölkə əhalisinin rifahını təmin etməklə yanaşı ölkənin hərbi potensialını artırmaq da dayanırdı. Birinci Qarabağ müharibəsi 1994-cü ildə imzalanan Bişkek protokolu ilə sonlansa da, Ermənistanla münaqişəli vəziyyət, işğal faktoru və Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları davam etməkdə idi. Bu baxımdan Azərbaycan iqtisadi imkanları hərbi dividendə çevirmək strategiyasını rəhbər tutaraq ordu quruculuğuna, ordunun müasir dünya standartlarına (Türkiyə və NATO modeli) uyğun formalaşdırılmasına, tərəfdaş dövlətlərlə birgə hərbi təlimlərdə, sülhməramlı missiyalarda iştiraka, onlarla hərbi-texnoloji sahədə əməkdaşlığın dərinləşdirilməsinə önəm vermişdir. Bu dövrdə ölkədə hərbi sahədə islahatların həyata keçirilməsi, Azərbaycanın müdafiə və təhlükəsizlik siyasətinin institusionallaşması istiqamətində addımlar atıldı. 2007-ci ildə qəbul edilmiş Milli Təhlükəsizlik Strategiyası və 2010-cu ildə qəbul edilmiş Hərbi Doktrina bunun bariz nümunəsidir.

Qeyd olunmalıdır ki, hər iki sənəddə Ermənistanın təcavüzkar siyasəti Azərbaycanın milli təhlükəsizliyinə əsas təhdidlərdən biri kimi təsbit edilmişdir[9] Azərbaycanın hərbi strategiyasının əsas məqsədi Azərbaycan torpaqlarını işğaldan azad etmək və beləcə ölkənin ərazi bütövlüyünü təmin etmək idi. Bu baxımdan, qeyd etmək lazımdır ki, 2020-ci ilə qədərki dönəmdə Azərbaycanın həyata keçirdiyi düşünülmüş hərbi siyasət xətti, müdafiə sahəsindəki islahatlar, hərbi imkanların və ordunun təkmilləşdirilməsi strategiyası Azərbaycanın İkinci Qarabağ Müharibəsində mütləq qələbə qazanmasına zəmin yaratmışdır.

İstənilən bir dövlət üçün qarşıya qoyulan məqsədlərə nail olmaq və milli maraqları təmin etmək üçün əlverişli beynəlxalq siyasi zəmin formalaşdırmaq zəruridir. Bu baxımdan Azərbaycanı İkinci Qarabağ Müharibəsindəki zəfərə aparan Xarici Siyasət strategiyasını nəzərdən keçirmək lazımdır. Təməli ötən əsrin 90-cı illərində Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan xarici siyasətinin əsas istiqaməti məhz ölkənin ərazi bütövlüyü və suverenliyini bərpa etmək idi. Məhz bu məqsədlə, həmin vaxtdan etibarən Azərbaycan milli maraqlara əsaslanan, çoxvektorlu, praqmatik xarici siyasət yürütmüş, regional və beynəlxalq inteqrasiya proseslərinin fəal iştirakçısına çevrilmiş, ikitərəfli və çoxtərəfli əsasda münasibətlərini dərinləşdirmişdir. Azərbaycan rəhbərliyi və diplomatları müxtəlif platformalarda, o cümlədən BMT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar çərçivəsində torpaqların işğalı məsələsini gündəmə gətirmiş və beləcə “erməni dezinformasiyası”na qarşı “Azərbaycan reallığı”nı aktuallaşdırmışdılar.

Nəticə etibarilə, bəhs olunan beynəlxalq təşkilatların Azərbaycan ərazilərinin işğalını pisləyən qətnamələr qəbul etməsi ölkənin beynəlxalq hüquqa əsaslanan mövqeyini daha da möhkəmləndirmiş, Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi istiqamətində hüquqi-institusional bazanın formalaşmasına zəmin yaratmışdır. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi diplomatiya, xarici siyasət sayəsində Azərbaycanın BMT TŞ-nın qeyri-daimi üzvü olması, 2009-cu ildə

---

[9] https://e-qanun.az/framework/13373

Naxçıvanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının əsasının qoyulması, Azərbaycanın Qoşulmama Hərəkatına üzvlüyü və bu quruma sədrlik etməsi, COVID-19 pandemiyası zamanı Azərbaycanın liderliyi ilə "peyvənd diskriminasiyasına" qarşı qlobal təşəbbüsün yaranması Azərbaycanın xarici siyasətdə kifayət qədər təsirli bir güc kimi təşəkkül etməsinə, regional və qlobal məsələlərin həllində fəal rol almasına dəlalət edirdi.

İkinci Qarabağ Müharibəsinin gedişində bəzi dövlətlərin Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirməsinə rəğmən əksər dövlətlər Azərbaycanın haqq mübarizəsini dəstəkləmişdilər. Buna bariz nümunə kimi İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı və digər qurumların verdiyi bəyanatları, o cümlədən 2020-ci ilin oktyabrın 19-da BMT TŞ-da Azərbaycana qarşı təklif edilən qətnamə layihəsinin Azərbaycanın Qoşulmama Hərəkatındakı tərəfdaş dövlətləri tərəfindən veto edilməsini göstərmək mümkündür. Beləliklə, məhz Azərbaycanın 90-cı illərdən etibarən həyata keçirdiyi düşünülmüş və milli maraqlara dayanan xarici, hərbi, iqtisadi siyasət bir-birini tamamlamış və ali məqsəd olaraq Azərbaycanın ərazi bütövlüyünün bərpasını təsbit etmişdir. Nəticədə, 2020-ci ildə Azərbaycan İkinci Qarabağ Müharibəsi və 2023-cü ildə antiterror əməliyyatları ilə Ermənistanı məğlub edərək, erməni işğalı və separatizminə son qoyaraq münaqişəni həll etmişdir.

Qeyd olunmalıdır ki, məhz 30 ilə yaxın davam edən danışıqlar heç bir nəticə vermədiyindən və Ermənistanın Azərbaycana qarşı hərbi təxribatları davamlı xarakter aldığından Azərbaycan BMT Nizamnaməsinin özünümüdafiə hüququ ilə bağlı 51-ci maddəsini əsas götürərək güc yolu ilə münaqişənin həll istiqamətində praktiki addımlar atmışdır. 2026-ci ilin martında baş tutan XIII Qlobal Bakı Forumunda çıxış edən Prezident İlham Əliyev mövzu ilə bağlı bu fikirləri bildirmişdir: "Əgər sülh yolu ilə həll üçün bütün ümid itir, ancaq həqiqət və ədalət, beynəlxalq hüquq sizin tərəfinizdədirsə, sülhə nail olmaq üçün gücdən istifadə etmək zəruridir. Məhz belə də oldu. Biz əvvəlcə güc tətbiq etməklə, daha sonra isə siyasi yollarla Ermənistanla sülhə nail olduq. Bu da müasir tarixdə, - müasir dedikdə son onillikləri nəzərdə tuturam, - nadir bir təcrübədir - ölkə özü güc tətbiq edərək suverenliyini və ərazi bütövlüyünü bərpa etdi." [10]

Bu baxımdan, əvvəldə qeyd edildiyi kimi, Azərbaycan-Ermənistan münaqişəsinin nizamlanmasını beynəlxalq münasibətlərdə realizm məktəbinin fikirləri ilə də əsaslandırmaq mümkündür. Beynəlxalq münasibətlərdə güc faktoruna xüsusi əhəmiyyət verən realistlər, dövlətlərin zərurət yaranarsa milli maraqların təmini üçün gücdən istifadə etməsini rasional hesab edirlər. Milli maraqlar sırasında isə ən ümdə maraq milli təhlükəsizliyin təminidir.[11] Amerikan siyasi tədqiqatçısı Uolter Lipmanın

---

[10] https://files.preslib.az/projects/xs/fes2/2026.pdf

[11] Hans J. Morgenthau, *Politics Among Nations: The Struggle for Power and Peace* (New York: Alfred A. Knopf, 1948), 5.

təbiri ilə desək milli təhlükəsizlik milli maraqları qurban vermədən müharibədən imtina etmək və ya bu maraqların təmini üçün müharibə etməyi özündə ehtiva edir.[12]

Realizm məktəbinin nümayəndələri dövlətlərin anarxik şəraitdə, yəni beynəlxalq institutların qeyri-effektivliyi və dünya nizamsızlığının mövcud olduğu şəraitdə güc toplamasını zəruri hesab edir. Uzun illər Ermənistan-Azərbaycan münaqişəsinin həllində beynəlxalq mexanizmlərin qeyri işlək olması və Ermənistanın beynəlxalq hüquqa məhəl qoymaması fonunda Azərbaycan "Si vis pacem, para bellum" – "sülh istəyirsənsə müharibəyə hazırlaş" prinsipini rəhbər tutaraq bu müddətdə ordu quruculuğu ilə məşğul olmuş və hərbi gücünü Vətən Müharibəsi dönəmində effektiv şəkildə nümayiş etdirmişdir. Onu da əlavə etmək gərəkdir ki, İkinci Qarabağ Müharibəsində Azərbaycanın məqsədlərindən biri də Ermənistanı sülhə vadar etmək və iki ölkə arasında sülhün sütunlarının formalaşdırılmasına zəmin yaratmaq idi. "Ədalətli müharibə" konsepsiyasının təməl prinsiplərindən biri "müharibənin məqsədi – sülhü bərpa etməkdir" prinsipidir ki, bu kontekstdə, İkinci Qarabağ Müharibəsinin nəticələri iki dövlət arasında sülh gündəliyinin formalaşması istiqamətində imkanlar pəncərəsi açmış oldu.

Həqiqətən də, 2023-cü ildən etibarən Azərbaycan və Ermənistan arasında sülh danışıqları daha da intensiv xarakter almış, ələlxüsus, danışıqlar ikitərəfli formata keçdikdən sonra ciddi nailiyyətlər hasil olunmağa başlanmışdır. 2025-ci ilin martında hər iki tərəfin Xarici İşlər Nazirləri Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşmasına dair bəyanat qəbul etmişlər.[13] Sülh danışıqlarının kulminasiya nöqtəsi kimi isə 2025-ci ilin avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan və Ermənistan arasında imzalanmış Sülh Bəyannaməsini qeyd etmək mümkündür. Bu bəyannamə ilə tərəflər sülh gündəliyinə sadiqliyini bəyan etmiş, sülh sazişi layihəsi paraflanmış, keçmiş münaqişənin qalıqlarından olan ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı çağırış edilmiş, iki dövlət arasında nəqliyyat və kommunikasiya xəttlərinin, o cümlədən Zəngəzur dəhlizinin açılması təsbit edilmişdir.[14]

Qeyd olunmalıdır ki, Vaşinqton bəyannaməsi ilə iki dövlət arasında uzun illərdən sonra faktiki olaraq sülh təsis edilmiş, tərəflər arasında ticari əlaqələr və vətəndaşlararası görüşlər bərpa edilmişdir. Bu bəyannamə həm də, Azərbaycanın İkinci Qarabağ Müharibəsi və anti-terror əməliyyatları nəticəsində qazandığı zəfərlərin praktiki-siyasi nəticəsidir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi Azərbaycan döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmış və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürləmişdir.[15]

---

[12] Walter Lippmann, *U.S. Foreign Policy: Shield of the Republic* (Boston: Little, Brown and Company, 1943), 5

[13] https://mfa.gov.az/az/news/no10525

[14] https://www.state.gov/wp-content/uploads/2025/08/2025JointDeclaration.AzerbaijanArmenia.pdf

[15] https://president.az/az/articles/view/71201

## Nəticə

Yekunda bir daha qeyd etmək gərəkdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin həllində həm hərbi, həm iqtisadi, həm də siyasi alətlərin birgə tətbiq edilməsi əhəmiyyətli rol oynamışdır. Hazırda iki ölkə arasında faktiki sülh şəraiti mövcuddur və yekun sülh sazişinin imzalanması üçün əsas maneə kimi Ermənistan Konstitusiyasının preambulasında yer alan Ermənistan Müstəqillik Bəyannaməsinə istinaddır ki, həmin bəyannamədə Azərbaycana qarşı ərazi iddiaları mövcuddur. Onu da əlavə etmək gərəkdir ki, iki ölkə arasında faktiki sülh şəraitinin mövcud olması yalnız iki ölkə arasındakı münasibətlərə deyil, bütöv Cənubi Qafqaz regionunun təhlükəsizlik arxitekturasına müsbət təsir göstərmiş, regionun sabitlik, inkişaf və bağlantılar mərkəzinə transformasiyasını daha da sürətləndirmişdir.

Əvvəlki bölümdə müasir münaqişələrin başlıca xüsusiyyətləri əbəs yerə sadalanmamışdır. Bu baxımdan onlar arasında mütləq qələbə ilə xarakterizə olunan nadir münaqişələrə nümunə kimi keçmiş Ermənistan-Azərbaycan münaqişəsini qeyd etmək mümkündür. Münaqişənin həllini təsbit edən Vaşinqton bəyannaməsi Azərbaycanın İkinci Qarabağ Müharibəsi və anti-terror əməliyyatlarında qarşıya qoyduğu bütün məqsədlərə çatması, öz ərazi bütövlüyü və suverenliyini bərpa etməsi və daha sonra irəli sürdüyü sülh gündəliyi və sülh danışıqları təşəbbüsü nəticəsində mümkün olmuşdur. Hazırda dünyanın bir çox bölgəsində münaqişələr və müharibələr, sabitliyi və təhlükəsizliyi təhdid edən çağırışlar mövcuddur. Bir tərəfdə dörd ildən artıqdır davam edən və böyük dağıntılar və itkilərlə müşayiət olunan Rusiya-Ukrayna müharibəsi, digər tərəfdə sonu bəlli olmayan və dünya iqtisadiyyatını lərzəyə salan ABŞ-İsrail və İran arasındakı konfrontasiya beynəlxalq təhlükəsizlik arxitekturasının ciddi sınaqlarla üzləşdiyini göstərir.

Belə bir qeyri-müəyyənlik və beynəlxalq böhran şəraitində Cənubi Qafqaz regionunda sabitliyin hökm sürməsi, ilk növbədə, Azərbaycan və Ermənistan arasındakı faktiki sülh şəraitindən qaynaqlanır. Yaranmış olan yeni regional təhlükəsizlik arxitekturasının memarı isə 44 günlük Vətən Müharibəsindəki qələbəni sülh üçün prerekvizitə çevirən Azərbaycandır. Bu qələbə sonu qeyri-müəyyən olan və heç bir tərəfin məqsədlərinə nail ola bilmədiyi hazırkı münaqişələr fonunda mütləq qələbə kimi nəzərdən keçirilməklə münaqişələrin həllində "Azərbaycan modeli"ni ön plana gətirməkdədir. Prezident İlham Əliyevin ötən il Euronews kanalında müsahibəsində səsləndirdiyi fikirlər qeyd olunanları bir daha əsaslandırmış olur: "münaqişələrin sayı artır və həll olunmuş münaqişələrə baxsanız, bunu yalnız burada, Qarabağda görə bilərik. Bu, beynəlxalq hüquq, tarixi ədalət əsasında həll edilmiş yeganə münaqişədir və münaqişənin həlli bütün dünya tərəfindən qəbul edilib."[16]

Münaqişələrin həllində "Azərbaycan modeli" Azərbaycanın 1990-cı illərdən etibarən həyata keçirdiyi düşünülmüş və milli maraqlara əsaslanan xarici, hərbi və iqtisadi siyasət alətlərinin ali məqsəd – erməni işğalına son qoyaraq ölkənin ərazi

[16]https://azertag.az/en/xeber/president_ilham_aliyev_the_conflict_in_karabakh_is_the_only_one_which_was_resolved_based_on_international_law_historical_justice-3463815?utm_source=chatgpt.com

bütövlüyünü bərpa etmək istiqamətində səfərbər edilməsini özündə ehtiva edir. Bu çərçivədə hərbi, iqtisadi və xarici siyasət istiqamətlərində fəaliyyət bir-birini tamamlayan vahid strategiya kimi həyata keçirilmişdir. İqtisadi müstəqillik və enerji siyasəti, ordunun müasir standartlara uyğun formalaşdırılması və hərbi imkanların təkmilləşdirilməsi, çoxvektorlu, milli maraqlara və beynəlxalq hüquqa dayanan xarici siyasət kursu – budur Azərbaycan modelinin əsasını təşkil edən başlıca elementlər. Məhz bu elementlərin vəhdət halında tətbiqi nəticəsində 2020-ci ildə Azərbaycan İkinci Qarabağ Müharibəsi və 2023-cü ildə antiterror əməliyyatları ilə Ermənistanı məğlub edərək erməni işğalı və separatizmə son qoymuş və beləcə münaqişəni həll etmişdir.

**Müəlliflər:**
**Mətin Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri;**
**Sultan Zahidov, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi**